BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

## ƏDƏBİYYATŞÜNASLIQ

# Ə.HAQVERDİYEV VƏ XALQIN MİLLİ ÖZÜNÜDƏRKİ

**M.C.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***M.Hasanova@mail.ru***

*Məqalədə Azərbaycan maarifçi realist ədəbiyyatının görkəmli simalarından olan Ə.Haqverdiyevin yaradıcılığı yeni məfkurə nöqteyi-nəzərindən dəyərləndirilir. M.F.Axundov ideyalarının davamçısı olan Haqverdiyev irsinin xalqın milli şüurunun təşəkkülünə xidməti analitik təfəkkürlə qiymətləndirilir. Müəllifin əsərinin ideya-bədii xüsusiyyətləri və dil zənginlikləri də tədqiq obyektinə çevrilir.*

XIX yüzilliyin sonunda dramaturgiyamızda maarifçiliyin M.F.Axundov və N.Vəzirovdan sonrakı mərhələsini Ə.Haqverdiyev başa çatdırır. Ədəbiyyatımıza 4 böyük faciə əsəri ("Dağılan tifaq", "Bəxtsiz cavan", "Ağa Məhəmməd şah Qacar", "Pəri Cadu") bəxş edən Haqverdiyev üçün bədii yaradıcılıq xalqı təkamülə yetirmək üçün bir vasitə idi. O, ədəbiyyata maarifçi realizmin aydın proqramı ilə gəlmişdir. Maarifçiliyin əsas meyarı olan ağıl onun bütün əsərlərinin ölçü vahidi olur və "Müsibəti-Fəxrəddin"dən sonra məhz "Dağılan tifaq" ikinci maarifçi faciə kimi öz missiyasını uğurla yerinə yetirir.

Maarifçi mütəfəkkirin hər bir əsərində mühitin və millətin ağrı-acısı duyulur. Bu milli ağrıların əsl vətəndaşlıq nisgili ilə şərhi, təhlili və ifşası onun yaradıcılığının məğzini təşkil edir.

Mərhum tənqidçimiz Y.Qarayevin göstərdiyi kimi, mülkədar dudmanlarının dağılması "Dağılan tifaq"da da məhz maarifçi ideallara xəyanətin təbii, zəruri cavabı və cəzası kimi təsvir, təhlil olunur. Qaçılmaz bəla olan nadanlıq bu əsərdə də milli bəyliyin şəxsi və sosial faciəsinin səbəbi və motividir. Maarifçilər üçün əxlaq normalarını, ictimai münasibətləri yaxşılaşdırıb ideal insan, ideal cəmiyyət yaratmaq lazım idi. Onlar üçün mühüt mikrocəmiyyət olan ailədən başlayırdı.

Əsərdə Nəcəf bəyin faciəsi elə inandırıcı təsvir edilmişdir ki, onun maddi və mənəvi iflası oxucuya tarixin qanuni hökmü kimi təsir bağışlayır. Nəcəf bəyin tragik vəziyyəti onun zahiri təzahür formaları ilə göstərilsə də, hadisələrin real məntiqi, onların yaranma səbəbləri haqqında müəyyən təsəvvür doğurur.

Müəllif süqut etməyə başlamış mülkədarlığın faciəsini realist qələmlə göstərə bilmişdir. Tragik qəhrəman kimi canlı və qüvvətli göstərilən Nəcəf bəyi müəllif bir xarakter kimi mürəkkəb və ziddiyyətli təsvir etmişdir.

Professor T.Mütəllibov Ə.Haqverdiyevə həsr etdiyi fundamental tədqiqatında haqlı olaraq Nəcəf bəyi müxtəlif tragik vəziyyətlərə salan müəllifin onun istismarçı təbiətini lazımınca açmadığını vurğulayır və bu cəhəti obrazln qüsuru kimi qiymətləndirir.

Nəzərə alsaq ki, rejim dövrü ədəbiyyatı bəyliyin istismarçı təbiətini ifrat dərəcədə şişirdirdi, onda Haqverdiyevin obyektivliyinə inamımız artar.

Əsərdə Nəcəf bəyin arvadına qarşı kobudluğu nəzərə çarpmasa da, Sona xanımın şikayətlərindən və ərinin onunla amiranə münasibətindən biz bu qadının hüquqsuz vəziyyətini anlayırıq.

Maarifçilər insanın xoşbəxtliyi və bədbəxtliyini onun şəxsi keyfiyyətlərinin məhsulu sayıb, bütün məsuliyyəti fərdin öz üzərinə yıxırdılar. Ə.Haqverdiyev də Nəcəf bəyin faciəsinə məhz bu aspekdən yanaşmışdı. Nəcəf bəyin son özünümüdafiəsi Allaha, İslama sığınmasıdır.

"O adamlar ki, mənəm-mənəm dedilər, hamısının axırı belə oldu. Pərvərdigara, məsləhət sənindir. Evlər yıxmışam, yetim uşaqların gözlərinin yaşını tökdürmüşəm. Övrətlər başıaçıq, ayaqyalın müsəlləyə çıxıb üstümə nalə töküblər, heç birinə qulaq verməmişəm. Demişəm, mənim kefim kök olsun. Cəmi insan tayfası belədir. İstərik həmişə öz qardaşımızdan üstün olaq. Ondan ötrü öz qardaşımızın ayağının üstünə çıxıb, başından basırıq. Amma demirik ki, qardaş başından basanın da allah başından basar. Allah divanını yada salmırıq, qiyaməti yada salmırıq..."

M.F.Axundovun dinə, İslama qarşı (daha çox fanatizmə) yönələn məfkurəsi N.Vəzirov və Ə.Haqverdiyevdə formasını dəyişir. Onların qəhrəmanları son anda İslama, Allaha sığınırlar: "...Xudaya! Dərgahında günahdan savayı bir iş tutmamışam, amma indi sidqlə əl götürmüşəm dərgahına, ümid əlimi naümid qaytarma. Xudaya! Bilirəm, o dünyada mənim üçün cəhənnəmdir. Amma ikinci cəhənnəmi bu dünyada mənə çəkdirmə. Pərvərdigara, ucuz ölümünü məndən əsirgəmə. Məni insan yanında üzüqara etmə. Qiyamətdə hər nə tənbeh etsən, hamısına layiqəm".

Arvadı Sona xanımın kölgəsi ondan imarətlərini tələb etdikdə, Nəcəf bəy daha aydın dərk edir ki, tövbə ilə günahlarını yumaq qeyri-mümkündür. Bu zaman o, ikinci etirafını söyləməli olur: "İndi ölmək istəmirəm. Mən əziyyətə layiq adamam. Gərək Allah mənə dünyada çoxlu ömür versin və çoxlu əzab..."

Mülkədarlığın iyrəncliyini ifşa edən bu qüdrətli ittihamnamə onun son təsəllisidir. Pyesin əsas ideyası bu hissədə öz bədii təsdiqini tapmış olur. İnsanın təkamülü budur! Mənən dəyişən, zənginləşən, özünü dərk edən və saflaşan insan! Son anda həyatı anlayan və bunun çox gecikdiyini anlayan fərd.

"Bəxtsiz cavan"da (1900) müəllif idealının ifadə tərzi daha aydındır. Azərbaycan maarifçilərinin işıqlı ideyalarına mane olan istismarçı cəmiyyətin ifşasına bu əsərdə də Haqverdiyev tam nail olmuşdur.

Əsərin qəhrəmanı Fərhadın xarakterindəki maarifçi xüsusiyyətləri tarixi həqiqətlərə uyğun canlandıran müəllif, qəhrəmanın gələcək arzularını da gizlətmir. Gimnaziyanı bitirməklə kifayətlənməyən Fərhad Xarkovda ali məktəbin tibb fakültəsində təhsilini davam etdirmək niyyətindədir. Onun bu qətiyyəti atalığı və qəyyumu Hacı Səmədağanı ona görə qorxudurdu ki, nüfuzlu həkim olub qayıtsa, Fərhadın malikanələri qəyyumun əlindən çıxa bilər. Deməli, konfliktin əsasında mülkiyyət mənafeyi durur. Fərhadı zorən evləndirməklə ailə-məişət buxovu vasitəsilə onun maarifçilik fəaliyyətinə əngəl yaratmağa çalışırlar. Bu əngəldən xilas üçün yeganə çarəni

Fərhad intiharda tapır. Lakin təsadüfən güllə qəyyuma dəyir. Beləliklə, əmisi ilə Fərhad arasında süjet ənənəvi sərvət və mülkiyyət münaqişəsi xətti ilə davam edir.

Bədii ideyaya sosial-maarifçi vüsətini və sanbalını isə Fərhadla, Hacı Səməd-ağa ilə kəndlilər arasındakı münasibətlərin məzmunu aşılayır. Gimnazıst bəy onlarla ünsiyyətdə yeni ziyalı maarifçi mədəniyyətinin bütün normalarını dərhal real işdə, əməldə tətbiq etməyə can atır: kəndliləri ağa mülkünə dəvət edir, onlarla qeyri-adi bir sadəlik və səmimiyyətlə söhbət edir. Maarifçi münasibətinin ənənəvi çərçivəsi buraya qədər hələ pozulmamışdır. Çərçivə o vaxt pozulur ki, mənəvi ünsüyyətə aşkar sosial notlar qarışır. Qəyyum qəzəblə irəli atılanda əxlaqı çərçivədən əsər-əlamət qalmır; o kəndliləri itələyib otaqdan çölə tullayandan sonra Fərhadla əmisi arasında kəskin mübahisə başlayır. “Kəndli adamdır, yoxsa heyvan? – dialoqun bu “problemə” qədərki davamı hələ o qədər də dramatik və “fəlsəfi” deyil, sosial fəlsəfə onda başlayır ki, opponentlər konkret ictimai (maarifçi) detallara gəlib çıxırlar. Fərhad yada salır ki, kəndlilərə barama qurdunu elmi əsaslarla necə çoxaltmaq barədə bir kitab verirlər və bütün kənddə bu kitabı oxuya bilən tapılmır: kəndli uşağı gərək kitab oxusun, barama qurdunun da, mülkədar ağanın da hər üzünü görüb tanıya bilsin (barama qurdu ifadəsi məncə qəsdən seçilib. Niyə məhz barama qurdu), başa düşsün ki, torpağa heç kimin sahiblik haqqı yoxdur. Allahdan başqa hətta bəy də bir tikə çörəyi öz halal zəhməti ilə qazanıb yeməli, yoxsulun uşağına “atalıq edib” onu oxutmalıdır. Yoxsa gec-tez qisas alınacaq və avam xalq “acgöz vəhşiləri” öz yolundan qoparıb kənara atacaqdır. Burada diapazon çox genişdir və səhnədə sinfi ziddiyyətdən, sosial inqilabdan açıq danışılır. Bütün bunlardan sonra gənc Fərhadın təklifi odur ki, gərək uşaqlar təhsil alsın və kəndli barama barədə elmi məlumatdan xəbərdar olsun. Onun bütün davranışı, xarakteri, mübarizə proqramı inandırır ki, Fərhadın nə inqilabi-demokratik, nə də liberal-maarifçi şüarları real fəaliyyətlə, əməli-işlə tamamlana bilməyəcək və gənc maarifpərvər zadəganlıq kənddə əməli islahata hələ hazır deyil.

“Pərvərdigara, sən özün məzlumları zalımların əlindən xilas elə” - deyə Fərhad allaha yalvarır və bir maarifçi kimi cəmiyyətin mübarizəsiz inkişafına inanır.

“Fərhadın “baxtsızlığı” - maarifçi proqramın əməldə, işdə gücsüzlüyüdür. İslahatçı ictimai demokratiya ideyalarının hələ maarifçi konteksdə davamı, “bətn dövrü” deyəndə biz bunu nəzərdə tuturuq” (Y.Qarayev).

Amma bu həm də o deməkdir ki, kənddə ictimai ziddiyyət kəskin həddə çatmışdır. Mülkədar da, ziyalı da eyni güllənin qurbanına çevrilir. Fərhad ölsə də, ilk dəfə ucadan elan etdiyi islahatçı, demokratik ideyalar yaşayır.

Azərbaycanda sovet dövrünə qədərki Haqverdiyev nəsrinin əsas tərkibini “Marallarım”, “Xortdanın cəhənnəm məktubları” silsiləsi, “Şeyx Şaban” povesti təşkil edir. Onun nəsrində realist gülüş, maarifçi satira daha sabitdir. Bu süjetlər üçün ibrətli felyeton, novella və lətifə vəziyyətləri səciyyəvi, naqis əxlaq problemi aparıcıdır. Haqverdiyev yaratdığı surətlərin daxili aləminə dərindən nüfuz edə bilir, onların özünəməxsus konkret mənəvi dünyasını həyata, insanlara, cəmiyyət hadisələrinə baxışını dəqiq müəyyənləşdirir. Bu isə onları orjinal fərd kimi təbii, həyati və canlı göstərir.

“Xortdanın cəhənnəm məktubları”nın cəhənnəməqədərki hissəsində Bərdə bazarlarından danışılarkən bir hampa müəllimi ilə kənd müəlliminin mübahisəsi göstərilir. Hampa müəllimi axtaran inspektora – “gedib dərs gətirməyə” dediyi üçün müəllimin qəzəbinə gəlib. Məlum olur ki, bütün günü veyil-veyil kəndləri gəzən müəllimdən kim harda olduğunu soruşduqda “getmişdim dərs gətirməyə” – deyirmiş.

Hampanın dili ilə müəllimin dərs metodu gülüş hədəfinə çevrilir. Etirafetmə üsulunun kütləvi formasından istifadə edən müəllif hər surətin daxili aləmi, xarakteri haqqında konkret təsəvvür yaradır.

Hekayə yaradıcılığında zahirən C.Məmmədquluzadə kimi milli varlığın keçmişini təsvir etsə də, əslində bu formasını dəyişib saxlanmış mahiyyətdir, "köhnə dünyanın bu günüdür". C.Məmmədquluzadə satirasındakı ehyamlı, tikanlı, atmacalı üslubla Ə.Haqverdiyevdəki baməzəlik, şuxluq xeyli fərqlidir. Müdrük və şaqraq şərq gülüşündən yararlanan müəllif heç vaxt tam müsbət və ya tam mənfi qəhrəman yaratmağı planlaşdırmır. O, müəyyən məqsədli, müəyyən arzulu, qüvvətli xarakter yaradır, onu ciddi maneələrlə qarşılaşdırır, həyat imtahanları qarşısında qoyur, güclü, zəif cəhətlərinin meydana çıxarır və orijinal xarakterli, düşünüb-daşınan, uğurlu-uğursuz həyat yaşayan canlı insan surəti yarada bilir (T.Mütəlimov).

Etirafetmə üsulunun kütləvi formasından istifadə edən müəllif hər surətin daxili aləmi, xarakteri haqqında konkret təsəvvür yaradır. Amma hər kəsin gülüşü fərdi, özünəməxsusdur.

"Xortdanın cəhənnəm məktubları"nda ədib yazır: "Günahkar cəhənnəmə düşən kimi Qəllaz və Şəddad adında məlakələr, rus kazakları əlsiz-ayaqsız füqəranın üstünü alan kimi, onun üstünü alıb başlayırlar onları odlu dəyənəklərlə vurmağa və zəncir bağlayıb odun içində sürüməyə". Nə qədər qüvvətli bir bənzətmə! Cəhənnəmdə günahkarın ətini didib, sümüklərini sındıran 70000 barmaqlı qaradovoylar da bizim qaradovoylara bənzədilir.

- Xülasə, nə ərz edim. Lap bizim qaradavoylar! Ədib xalqın incə yeri olan dindən istifadə etməklə onların diqqətini milli məsələyə, özünüdərk məsələsinə yönəldir və məqsədinə nail olur. Bu əsərdə Ə.Haqverdiyev Allaha, islama qarşı çıxmır. Rejim dövrünün ədəbi tənqidində çox şişirdilmiş formada təqdim olunsa da, qətiyyətlə deyərdik ki, ədib islama ləkə gətirən və onu hörmətdən salan "yalançı din xadimləri"ni məzhəkəyə qoyur. Fazil Dərbəndi kimi ruhani din xadimlərinin əməllərinin nəticəsi kimi, yerlərini cəhənnəmdə görürük. Bu özü islamın əxlaq kodeksi ilə tərbiyələndirmə metodudur. Cəmiyyətdən qorxub çəkinməyənləri müəllif Allah xofu vasitəsilə naqisliklərindən döndərməyə çalışır, cəhənnəm qorxusu ilə qorxudur. "Xortdanın cəhənnəm məktubları"nın niyyəti zahirən "İlahi komediya"nı (Dante) xatırlatsa da, bədii sujetin mahiyyəti etibarilə o, "Qulliverin səyahətləri" ilə, həmçinin fantastik fabulası, kəskin satirik mübarizəsi ilə seçilən digər maarifçi – realist povestlərlə bir tipologiyaya daxil edilir. Əsərdə dələduzluqla məşğul olub bəd əməllər, bais işlər görənlərin cəhənnəmdə hansı əzablara düçar olduqları konkret faktlarla göstərilir. Əsər milli özünüdərk, pak əməl, tanrı dərgahına inam aşılamaqla yanaşı, dini xürafata, din adından alver edən mömünlərə nifrət oyadır və onları məsxərəyə qoyur. Əsərin sonunda rus qoşununun cəhənnəmə dolması faktı ilə bağlı müəllifiin mükaliməsi maraqlıdır. Ordakılardan biri:

-Bundan sonra gərək hamımız cəhənəmdən baş götürüb qaçaq. Odabaşıya dedim:

-Əmi oğlu, tez olun buradan məni çıxardın. Bunlar ki, buraya sahibləndilər, məni başburtsuz görüb əziyyət edəcəklər. Tez olun, qardaşım. Şərhə ehtiyac yoxdur.

"Maralların" silsiləsi – milli gerçəklərə, tarixi həqiqətlərə bütöv bir yanaşma tərzidir. Silsilə bütünlükdə struktur məzmunu və kompozision əhatəsi ilə söz deyir, fikir söyləyir. Həm də satirik məqamda:

“Qulaqlar hər biri bir qarış, yaranıblar eşitməyə. Amma nə? Mərsiyyə, qəsidə, mütrüb nəğməsi... Hər biri bir çatdaq boyda gözlər? Dünyada heç bir şey görməyən...” milli-müsəlman həyatının bütöv bir qatının tənqid-təsiviri nəzərdə tutur. Ədib milli tühafların böyük bir sırasını cəm eliyib “hamısına birdən gülmək” niyyətindədir:... Gedərsən İrana, Hindistana, Türküstana, Ərəbistana, İrəvana, Naxçıvana, Qarabağa və s. ... Hər yer mənim marallarım ilə doludur... Burda bir sizi deyib gəlmişəm ... məqamı da var: -Gözəl marallarım, göyçək marallarım, hər biri bir can marallarım... Keçəl marallarım, qotur, bitli marallarım... Başları qapazlı, üzləri tüpürcəkli marallarım.

Əzizləmə başlanğıcı ərkyanalığa, yaxınlığa yer qoyur. Müəllif məhz bu məqamdan qəhrəmanlarının aləminə daxil olur.

Dünyanın gedişatını laqeyd izləyən, bir yanda xoş əxlaqlı, saf təbiətli, o yanda məzəli, qayğıları əyləncəyə, problemləri tədbirə çevirə bilən... dəcəl insanlar yurdu “Dəccələbad”.

Əsr irəllilədikcə milli ideyalar daha gerçək məzmun kəsb edir, konkret millət problemi şəklində qabarır. Millət özünüdərk mərhələsini yaşayır və bu ədəbiyyatımızda özünü daha çox büruzə verir.

Ə.Haqverdiyevin “Ata və oğul” hekayəsi (1906) milli müsəlman həyatının “proza”sını verən ibrətli bir əsərdir. Müsəlman həyatını diriliyi, səbatı, özünəxas üstünlükləri nədədir? Müsəlmanın güzəranı, tərəqqi və səadəti nə ilə bağlıdır?

“Əvvəla, bala, bu gündən ömürünün axırınadək sən bunu heç xəyalından çıxartma ki, müsəlmansan. Quranın və peyğəmbərin şəriətinin hökmlərinə həmişə itaət elə və bilgilən ki, bu itaətin axirət ruyi-səfidliyindən savayı, dünya xoşbəxtliyi də səninlə olar və Allahın əli və kölgəsi heç vaxt sənin üstündən kəm olmaz... Bacar dünyada hamıya yaxşılıq elə...” Ata vəsiyətində yığcam şəkildə ehtiva olunmuş müsəlmanın bu həyat kodeksi əsərdə iki rakursdan sınanır. Atanın simasında bunun ideal gerçəkliyi verilir: - Hacı Xəlil ömrü boyu islami dəyərlərə tapınıb, səadətini tapır: oğlunun timsalında real həyat həqiqəti görk olunur: - Əhməd ata vəsiyyətinə göz yumur, bundan uzaqlaşdıqca iflasa uğrayır, məhv olur. Hacı Xəlilin ömrü halallıq üzərində qərar tutmuşdur. “Yalan”, “günah” Əhmədin uçuruma yuvarlanan ömrünü səciyyələndirən amillərdir. Hacı Xəlilin övrəti oğlunun dərdindən bir neçə günün içində əriyib sönür. Kərbəlayi Qulaməli ağasının ardınca Sibirə getməyə hazırlaşır: “Qurbanın olum, əlacım nədir. 40 il atasının çörəyini yemişəm, əgər onun yaman günündə gözdən qoysam, o çörək mənim gözlərimə durar”. Milli-mənəvi dəyərlərə hörmətin ən ali forması budur. “Ata nəsiyyəti”ndə Hacı Xəlil oğluna deyir: “Yüz zəhmətlə səni mən bu boya yetirmişəm. Hərçənd uşqoladan yarımçıq çıxıbsan”... Müəllif diqqəti bu “uşqoladan yarımçılıq” bəlasının nə olduğuna, sağlam təhsilə yönəldir. Hacı Xəlil mollaxana təhsili almış şəxsdir: “Bu dövlətin binası mənim savadım olub. Ona görə, bala, övladın olsa, bitərbiyə qoyma...” Məhz bu “uşqoladan yarımçılıq” qapalı müsəlman dünyasının dağılmasına səbəb olur. Bütünlükdə həyat tərzi başqalaşır. Milli-mənəvi dəyərlər qiymətdən düşür. Milli cəmiyyət istər ideal, istərsə də real planda tipik münasibətləri, tipik xarakterləri ilə onun hər bir hekayəsində yenidən canlanır. Xeyirxahlıq və bədxahlıq, doğruluq və yalan, dostluq və hörmət, hiylə, məkr və sevgi, inam və inamsızlıq, nəhayət, təbiətən saf işıqlı insanlar. – Mirzə Səfər, Usta Zeynal, Şeyx Şabanlar və milli tühaflar – “marallarım” burada yanaşı gəlir, birgə, ədəbi qonşuluqda yaşayır (T.Əlişanoğlu).

“Mirzə Səfər” hekayəsində əsrin əvvəlləri Azərbaycan türkünün “həyat tarixçəsi” verilir. Mərd, saf əxlaqa malik türk xarakteri geniş dünyagörüşlü, vətəndaş siması, övlad tərbiyəsində milli dəyərləri yaşatması ilə təqdim və təsvir olunur.

Mirzə Səfər kimi qəhrəmanların daxili bütövlüyü Həsən ağaların cılızlığına üstün gəlir.

“Ayın şahidliyi” hekayəsində müəllif ayın dilindən öz əsas məqsədini açıqlayır: “Amma indi bu millətin əhvalına nəzər etdikcə deyirəm ki, lal olub danışmamaq məsləhətdir. Mənim üzümdə siz bir qara görüb onu ləkə hesab edirsiniz. Xeyr! O, qara ləkə deyil, belə mənim ahımın tüstüsüdür ki, əqvami-islamiyətin hər cəhətdən cəmi millətdən geri qalmağını görüb ciyərimdən çıxarıram!”.

Ə.Haqverdiyev nəsrinin realizmi - dolğun realizmdir. Realizmin başlıca prinsipi olan xarakterlərin sosial gerçəklərə uyğun təqdim-təsviri burada aparıcıdır. Ə.Haqverdiyevin milli müsəlmanı konkret müsəlman cəmiyyətinin övladıdır, bütöv bir ictimai münasibətlər daşıyıcısıdır. Realizmin digər əlamətinə - tarixiliyə gəldikdə isə bu, Haqverdiyevin nəsrində özünəməxsus tərzdə təzahür edir. Tarix şərti olaraq fonda, konteksdə, ümumi ideya xəttində də vardır. Yazıçının yaratdığı dünya gerçək tarixin bir hissəsi olmayıb, onun alternativi kimi təzahür edir.

## ƏDƏBİYYAT


1. Qarayev Y. Realizm, sənət və həqiqət. Bakı: Elm, 1980, 255s.
2. Haqverdiyev Ə. Seçilmiş əsərləri. 2 clddə. I, II c. Bakı: Lider, 500s
3. Mütəllimov T.Ə. Haqverdiyevin poetikası. Bakı: Yazıçı, 1988, 323 s.
4. Əlişanoğlu T. Əsrdən doğan nəsr. Bakı: Elm, 1999, 117s.


## А.АХВЕРДИЕВ И НАЦИОНАЛЬНОЕ САМОСОЗНАНИЕ НАРОДА


**М.С.ГАСАНОВА**


## РЕЗЮМЕ


В статье оценивается новая точка зрения в творчестве одного из выдающихся личностей азербайджанской просветительной и реалистической литературы А.Ахвердиева. Оцениваются заслуги ахвердиевского наследия в возрождении национального самосознания народа и аналитических мышлений как продолжители идей М.Ф.Ахундова. Идейно-художественные особенности и богатство словарного запаса является основным объектом исследования автора.


## A.HAGVERDİYEV AND THE PEOPLE’S NATIONAL SELF-CONSCİOUSNESS


**M.S.HASANOVA**


## SUMMARY


The article elucidates a new point of view in the creativity of one of the most remarkable figures in the Azerbaijan enlightening – realistic literature. As a successor of M.F.Akhundov’s ideas, the role of Hagverdiyev’s literary heritage in the development of the people’s national self-consciousness is estimated by analytic thinking. The idea-artistic features and rich linguistic value of the writer’s work are also the object of research in the article.